

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Qəzet 1921-ci ildən çıxır

Sayı: 118 (21.270)

17 iyun 2015-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Naxçıvanda Milli Qurtuluş Günü münasibətilə bayram konserti olmuşdur

İyunun 15-də Naxçıvan şəhərindəki muxtar respublika stadionunda Milli Qurtuluş Günü münasibətilə bayram konserti təşkil olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov tədbirdə iştirak etmişdir.

Tədbirin aparıcıları qeyd etmişlər ki, milli qurtuluşdan ötən 22 il ərzində Azərbaycan yüksək inkişaf yolu keçmiş, bütün sahələrdə böyük uğurlar qazanılmış, ölkəmiz dünya dövlətləri sırasında öz layiqli yerini tutmuşdur. Bu yüksəliş, inkişaf və tərəqqi müstəqil Azərbaycan tarixinə qızıl hərflərlə yazılmış Milli Qurtuluş Gününün bəhrələridir. 1993-cü ilin 15 iyun günü böyük xilaskarlıq missiyasının başlanğıcı, Milli Qurtuluş Günü kimi Azərbaycan xalqının tarixinə yazılmışdır. Həmin gün xalqın təkidli tələbi ilə yenidən siyasi hakimiyyətə qayıdan ulu öndər bütün qüvvəsini Vətənimizi üzləşdiyi bəlalardan, xalqımızı çətin günlərdən xilas etməyə yönəltmişdir. ***“Bütün həyatımı təhlil edəndə görürəm ki, mən Azərbaycanın müstəqilliyini təmin edə bilmişəm. Onu daxili çəkişmələr alovunda, dağıntılar və qan içində məhv olmağa qoymamışam”***, – deyən ümummilli lider Heydər Əliyev müstəqil Azərbaycanın qurucusu kimi xalqımızın qəlbində əbədiyaşarlıq hüququ qazanmışdır.



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov Naxçıvandan başlanan Milli Qurtuluş tarixi barədə demişdir: ***“Heydər Əliyevin Naxçıvandan Bakıya, böyük siyasətə qayıdışı şərəfli xilaskarlıq missiyasına – Azərbaycanı Azərbaycana qaytarmaq məramına xidmət edir”.*** Həqiqətən də Azərbaycana ikinci rəhbərliyi dövründə ümummilli liderimiz neçə-neçə qərinəyə sığmayan böyük işlər görmüş, ölkə həyatının bütün sahələrində əsaslı dönüşə nail olunmuş, iqtisadi inkişaf təmin edilmişdir.





Bu gün Azərbaycan ulu öndər Heydər Əliyev yolu ilə inamla irəliləyir. Ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə bütün sahələrdə uğurlar qazanılır. İnkişaf və intibah dövrünü yaşayan Azərbaycan dünyanın diqqət mərkəzinə çevrilmişdir. Hazırda ölkəmiz ilk dəfə keçirilən Avropa Oyunlarına ev sahibliyi edir. Bu, ölkəmizdə idmanın inkişafına göstərilən diqqətin, eləcə də Azərbaycanın dünyadakı nüfuzunun daha bir ifadəsidir.

Tədbirin aparıcıları demişlər ki, blokada şəraitində yaşamasına baxmayaraq, Naxçıvan Muxtar Respublikası da bu gün sürətlə inkişaf edir, şəhər, qəsəbə və kəndlər yenidən qurulur. Qədim Naxçıvanın müdafiə qabiliyyəti gücləndirilmiş, makroiqtisadi sabitlik bərqərar olunmuş, iqtisadi inkişafa təkan verilmiş, əhalinin yaşayış səviyyəsi yaxşılaşdırılmışdır. Bütün bunlar ulu öndər Heydər Əliyev yoluna sədaqətin və Milli Qurtuluşdan başlanan intibahın bəhrələridir.



Bayram konsertində müğənnilərdən Könül Kərimovanın, Cabbar Musayevin, Aşıq Əli Tapdıqoğlunun, Gülay Zeynalovanın və Röya Ayxanın çıxışları tamaşaçıların alqışları ilə qarşılanmışdır.

Sonda bayram atəşfəşanlığı olmuşdur.

Konsertdən sonra ifaçılarla görüşən Ali Məclisin Sədri onları Milli Qurtuluş Günü və uğurlu konsert münasibəti ilə təbrik etmişdir.

Ali Məclisin Sədrinə bayram təbriklərini çatdıran ifaçılar onlara göstərilən diqqətə görə minnətdarlıq etmişlər.

Sonra Ali Məclisin Sədri ifaçılarla xatirə şəkli çəkdirmişdir.

Bayram konserti Naxçıvan Dövlət Televiziyası ilə canlı yayımlanmışdır.

Həmin gün muxtar respublikanın rayon mərkəzlərində də 15 İyun – Milli Qurtuluş Günü münasibəti ilə bayram konsertləri olmuş, el şənlikləri keçirilmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Əhaliyə keyfiyyətli bank xidmətləri göstərilir

Muxtar respublikamızda bank sektorunun fəaliyyəti genişləndikcə əhalinin bank xidmətlərinə olan marağı da artır. Bu gün banklarda müştəri hesablarının sayının günbəgün artması da məhz əhali və bankların etibarlı partnyorluğuna əsaslanır. Müştərilərin sayının artmasına səbəb olan amillərdən ən əsası isə onlara göstərilən xidmətlərin keyfiyyətinin ilbəil daha müasir standartlara cavab verməsidir.

2015-ci ilin 1 iyun tarixinə 2288 hüquqi, 41457 fiziki şəxs olmaqla, 43745 müştəriyə xidmət göstərilib. Onlardan 9639 nəfəri fərdi sahibkarlıq fəaliyyəti ilə məşğul olanlardır. Ötən ilin müvafiq dövrü ilə müqayisədə xidmət olunan bank hesablarında 15474 ədəd artım müşahidə edilib. Xidmət olunan hesabların 40154-ü işlək hesab olub. Onların 1358-i hüquqi, 38796-sı isə fiziki şəxslərdir. 2015-ci ilin ilk beş ayı ərzində açılmış bank hesablarının sayı isə 5493 ədəd təşkil edib ki, onların 41-i hüquqi, 5452-si isə fiziki şəxslərdir.

***Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin mətbuat xidməti***

*Son illərdə füsunkar təbiətinə tikinti-quruculuq tədbirlərinin əlavə çalarlar qatdığı Şahbuz rayonu bura yolu düşənləri, sözün həqiqi mənasında, təəccübləndirir.*

## Daha bir kənddə kompleks quruculuq işləri aparılır

Rayonda müxtəlif təyinatlı obyektlərin həyata vəsiqə alması, yolların müasir tələblər səviyyəsində yenidən qurulması, körpülər salınması, digər quruculuq tədbirləri sadalanmaqla qurtaran deyil. Ümumilikdə, 24 yaşayış məntəqəsi olan Şahbuz rayonunda 20 məktəb, 20 kənd mərkəzi, 17 xidmət mərkəzi, mərkəzi xəstəxana, 5 həkim ambulatoriyası, 17 feldşer-mama məntəqəsi, rayon mərkəzində onlarla idarə, müəssisə, təşkilat öz fəaliyyətini müasir iş şəraiti yaradılmış binalarda davam etdirir. Şahbuz məhz belə tədbirlər hesabına bu gün özgə büsatdadır.

Hazırda Şahbuz şəhərində uşaq bağçası təhvilə hazırlanır, Daylaqlı kəndində məktəb və kənd mərkəzi üçün yeni binalar inşa olunur. “Dizayn İnşaat” Məhdud Məsuliyyətli Cəmiyyətinin bir qrup inşaatçısına həvalə edilmiş obyektlərdə görülən işin keyfiyyətinə ciddi diqqət yetirilir. 120 şagird yerlik məktəb binası 3 mərtəbədən ibarət olacaq. İdman zalı, kitabxana, laboratoriyalar, şahmat və kompüter otaqları, elektron lövhəli siniflər yeni məktəb binasında tədrisin yüksək səviyyədə təşkilinə imkan verəcək. İnşaatçılar onlara yaradılmış hərtərəfli şəraitdən səmərəli istifadə edir, obyekti vaxtında təhvil vermək üçün səy və bacarıqlarını əsirgəmirlər.

Məktəb binasının yaxınlığında isə kənd mərkəzi üçün bina inşa olunur. Binada kənddə fəaliyyət göstərən dövlət qurumları üçün hərtərəfli iş şəraiti yaradılacaq.





Yaxın günlərdə kənddə xidmət mərkəzinin də tikintisinə başlanılacaq.

**Xəbərlər şöbəsi**


Akademik Zərifə Əliyeva adına Naxçıvan Şəhər Poliklinikası

*17 iyun tibb işçilərinin peşə bayramıdır*

# Muxtar respublikada müasir səhiyyə sistemi formalaşdırılıb

***1918-ci il iyunun 17-də Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən ölkəmizdə ilk Səhiyyə Nazirliyi yaradılmışdır. Ümummilli liderimiz Heydər Əliyevin 2001-ci il 4 iyun tarixli Sərəncamı ilə hər il iyunun 17-si ölkəmizdə tibb işçilərinin peşə bayramı kimi qeyd olunur.***

Bu günün qeyd olunması ölkəmizdə səhiyyə sahəsinə, o cümlədən tibb işçilərinə göstərilən qayğının parlaq təzahürüdür. Milli dövlət quruculuğu strategiyasında səhiyyənin də inkişafına həssaslıqla yanaşan, bu sahəyə diqqət və qayğısını heç zaman əsirgəməyən ulu öndər Heydər Əliyev tibb işçilərinə müraciətlə deyirdi: ***"...Siz bütün fəaliyyətinizi bu sahə ilə bağlayaraq həyatınızı olduqca qədim, nəcib və xeyirxah bir işə – insanların sağlamlığının qorunması işinə həsr etmisiniz. Əhalinin sağlamlığının mühafizəsi və tibbi xidmətin yaxşılaşdırılması istiqamətində irəliyə doğru atdığınız addımlar bizi sevindirir. Həkimlik peşəsi öz xalqına, sənətinə yüksək sədaqət tələb edən bir işdir".***

Dahi liderin rəhbərliyi ilə hələ ötən əsrin 70-ci illərində ölkəmizin bütün regionlarında səhiyyə ocaqları tikilərək istifadəyə verilmiş, əhalinin sağlamlığının qorunmasına xüsusi diqqət yetirilmişdir. Müstəqillik illərində də səhiyyənin inkişafına hesablanmış məqsədyönlü və ardıcıl tədbirlər görülmüş, bu sahədə fəaliyyəti tənzimləyən zəngin qanunvericilik bazası yaradılmış, həkimlərin və tibb işçilərinin sosial müdafiəsinin gücləndirilməsi, ixtisaslı və peşəkar həkim kadrlarının hazırlanması diqqət mərkəzində saxlanılmışdır. Bu gün Azərbaycan səhiyyəsi özünün yeni inkişaf mərhələsini yaşayır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev səhiyyə sisteminin müasir inkişafını, bu sahənin maddi-texniki bazasının, kadr potensialının gücləndirilməsini və infrastrukturun yenilənməsini sosial islahatların prioritet istiqaməti kimi müəyyənləşdirmişdir.

İnsan sağlamlığı bütün dövrlər üçün cəmiyyətin ən qiymətli sərvəti hesab olunur. Məhz buna görə də insanların sağlamlığının yaxşılaşdırılması, əhalinin bütün təbəqələrinin keyfiyyətli tibbi xidmətlə təmin edilməsi məqsədilə bu gün Naxçıvan Muxtar Respublikasında da mühüm işlər görülür. Səhiyyə infrastrukturunun yenilənməsi, yeni ambulator və stasionar müalicə-profilaktika müəssisələrinin yaradılması əhalinin sağlamlığının qorunması işində əsaslı dönüşə səbəb olmuşdur. Dərman və tibbi ləvazimatlarla təchizat yaxşılaşdırılmış, ana və uşaqların, ahıl vətəndaşların, bütövlükdə, əhalinin hər bir təbəqəsinin sağlamlığının qorunması prioritet məsələyə çevrilmişdir. Təkcə ötən il 13 səhiyyə müəssisəsi istifadəyə verilmişdir.

Muxtar respublikada səhiyyə quruculuğu tədbirləri bu gün də davam etdirilir. Hazırda Naxçıvan Muxtar Respublika Xəstəxanasında yenidənqurma işləri aparılır, müasir tibbi avadanlıqlarla təchizat təmin edilir. Bu məqsədlə Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 11 aprel tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının 2014-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə doqquz milyon manat ayrılmışdır. Bundan başqa, Naxçıvan Muxtar Respublikası Yoluxucu Xəstəliklərlə Mübarizə Mərkəzi, İmmun Çatışmazlığı Sindromu ilə Mübarizə Mərkəzi, Dəri-Zöhrəvi Dispanseri üçün binaların tikintisi də davam etdirilir.


Şahbuz Rayon Mərkəzi Xəstəxanası

Hazırda Naxçıvan Muxtar Respublikasında əhaliyə 236 tibb müəssisəsi tərəfindən tibbi xidmət göstərilir. Onlardan 208-i rayonların, digərləri isə Naxçıvan şəhərinin payına düşür. Həmin tibb müəssisələrində 734 həkim, 2 mindən artıq tibb işçisi çalışır.

Bu gün muxtar respublikada səhiyyə sahəsində görülən işlər ancaq quruculuq tədbirləri ilə yekunlaşmır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2003-cü il 27 may tarixli Sərəncamı ilə ölkədə ilk olaraq Naxçıvan Muxtar Respublikasının dövlət səhiyyə müəssisələrində bütün növ pullu xidmətlər ləğv edilmişdir. Tibb ocaqlarının müasir avadanlıqlar, müayinə və müalicə aparatları ilə təchiz edilməsi, lazımi sanitar şəraitin yaradılması və pulsuz xidmətin təşkili hər bir vətəndaşa öz sağlamlığını qorumağa imkan yaradır.

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi dövlət proqramlarının icrasını əsas fəaliyyət istiqaməti kimi götürərək verilən tapşırıqların icrasını uğurla yerinə yetirir. Yoluxucu xəstəliklərin qarşısının alınması məqsədilə Gigiyena və Epidemiologiya mərkəzləri tərəfindən profilaktik və əks-epidemik tədbirlər mütəmadi olaraq davam etdirilir, su anbarlarında, su təchizatı qurğularında, ictimai, inzibati və digər binalarda, məişət suları axıdılan və tullantılar toplanan yerlərdə dezinfeksiya və dezinseksiya işləri aparılır. Bu istiqamətdə görülən işlərin nəticəsidir ki, Ümumdünya Səhiyyə Təşkilatının müntəzəm monitorinqdə saxladığı əsas yoluxucu xəstəliklərə, o cümlədən salmonellyoz, bakterial dizenteriya, difteriya, epidemik parotit, pedikulyoz, malyariya, leyşmanioz, poliomielit və tetanus kimi xəstəliklərə muxtar respublika ərazisində təsadüf olunmur. Digər yoluxucu xəstəliklər isə əvvəlki illərlə müqayisədə xeyli azalmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bu sahədə görülən işləri yüksək qiymətləndirərək demişdir: ***"Bu gün muxtar respublikada insanların sağlamlığının qorunması, onların müalicə və müayinəsinin yüksək səviyyədə təşkili istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Səhiyyə sisteminin maddi-texniki bazasının müntəzəm olaraq möhkəmləndirilməsi, yüksək səhiyyə xidmətinin təşkili öz bəhrəsini verir. Artıq muxtar respublikada ciddi problem yaradan xəstəliklər yoxdur, insanların sağlamlığı daim diqqət mərkəzində saxlanılır".***

Ali Məclis Sədrinin tapşırığı ilə kardiocərrahiyyə, uroloji, plastik, göz, angioqrafiya və digər yüksəkixtisaslı həkim briqadalarının dəvət olunaraq muxtar respublikamıza gətirilməsi, aztəminatlı ailələrdən olan xəstələr üçün nəzərdə tutulmuş xüsusi sağlamlıq layihələrinin reallaşdırılması insanların sağlamlığına göstərilən diqqət və qayğının bariz ifadəsidir. Təkcə 2014-cü il ərzində sosial layihələr çərçivəsində Türkiyə Respublikasından və Bakı şəhərindən mütəmadi olaraq dəvət olunmuş yüksəkixtisaslı həkimlər – oftalmoloqlar, plastik və laporoskopik cərrahlar tərəfindən, bütövlükdə, 294 cərrahi əməliyyat aparılmışdır. Bu əməliyyatların yerli həkimlərlə birgə aparılması onların peşə vərdişlərinin yüksəldilməsində mühüm rol oynayır.

Səhiyyənin inkişafı istiqamətində həyata keçirilən tədbirlər çərçivəsində kadr təminatının təkmilləşdirilməsi də vacib məsələ kimi daim diqqət mərkəzində saxlanılır. Naxçıvan Dövlət Universitetində və Naxçıvan Tibb Kollecində ali və orta ixtisas tibb kadrlarının hazırlanması bu işdə mühüm nailiyyətlərin qazanılması ilə nəticələnmişdir. Artıq bu təhsil ocaqlarını bitirən gənc tibb işçiləri muxtar respublikanın xəstəxanalarında çalışırlar. Bununla yanaşı, həkimlərin peşə vərdişlərinin artırılması məqsədilə çoxsaylı seminarlar, konfranslar keçirilir, tibb işçiləri Bakı şəhərinə və Türkiyə Respublikasının müxtəlif klinika və xəstəxanalarına kurslara göndərilirlər. Bütün bunların nəticəsidir ki, artıq muxtar respublikadan olan həkimlər müstəqil şəkildə xəstələr üzərində açıq ürək, laporoskopik, TUR, LOR, göz və digər mürəkkəb cərrahi əməliyyatlar aparırlar.


Naxçıvan Diaqnostika-Müalicə Mərkəzi

Müasir dövrdə əhalinin sağlamlığının qorunması istiqamətində həyata keçirilən tədbirlərin əsas istiqamətlərindən birini də səhiyyə maarifi işi təşkil edir. Əhali arasında səhiyyə maarifinin gücləndirilməsində və yerlərdə onlara tibbi xidmət göstərilməsində həkim briqadalarının böyük rolu var. Bu briqadalar qrafik əsasında kəndlərdə olur, əhaliyə tibbi xidmət göstərirlər. Bu da xəstəliklərin qarşısının alınması, onların erkən aşkar edilməsi və vaxtında müalicə olunması baxımından əhəmiyyətlidir.

Görkəmli oftalmoloq-alim Zərifə xanım Əliyeva "Həkimin yüksək vəzifəsi" monoqrafiyasında haqlı olaraq belə hesab edirdi ki, həkimin peşə mövqeyi onun xəstəyə münasibətini müəyyənləşdirən başlıca amildir: ***"Yalnız o şəxs əsl həkimdir ki, xəstənin ağrılarını məhz özünün ağrıları hesab edir. Belə bir həkim üçün hər dəfə xəstəni qəbul etmək, hər dəfə xəstəliyə düçar olmuş insanla söhbət etmək həm xəstə qarşısında, həm də cəmiyyət qarşısında, ən başlıcası isə öz vicdanı qarşısında əxlaqi məsuliyyət deməkdir".*** Naxçıvanın səhiyyə müəssisələrində çalışan həkimlər öz peşələrinə məhz bu aspektdən yanaşaraq insanlara nümunəvi tibbi xidmət göstərirlər. Onların da əməyi dövlətimiz tərəfindən həmişə layiqincə qiymətləndirilir. Təkcə bir faktı qeyd edək ki, muxtar respublikamızın səhiyyə müəssisələrində çalışan yüzdən çox səhiyyə işçisi Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası həkimi, Əməkdar həkim, Əməkdar tibb işçisi fəxri adlarına layiq görülmüş, "Tərəqqi" medalı, "Səhiyyə əlaçısı", "Rəşadətli əməyə görə" nişanı və fəxri fərmanlarla təltif edilmişlər.

*Peşə bayramlarını yüksək nailiyyətlərlə qeyd edən tibb işçiləri bundan sonra da muxtar respublika səhiyyəsinin inkişafına öz layiqli töhfələrini verəcəklər.*

## Koronarangioqrafiyanın inkişafında yeni mərhələ

Koronarangioqrafiya ürəyin tac damarlarını müayinə etmək üçün ən informativ bir üsuldur. Bu üsul ürəyin tac damarlarının vəziyyəti haqqında geniş məlumat verir. Müayinə prosesində sağ və ya sol bud arteriyasından nazik tel (kateter) salınaraq ürəyin tac damarına qədər yeridilir. Kontrast maddə vurularaq ürəyin tac damarlarının şüa müayinəsi aparılır. Ürəyin damarları haqqında dəqiq məlumat toplandıqdan sonra müəyyən nəticəyə gəlinir. Xəstəyə stent qoyulmasına, yaxud kardiocərrahi əməliyyata, dərman müalicəsinə qərar verilir. Bu prosesin həyata keçirilməsi üçün Naxçıvan Diaqnostika-Müalicə Mərkəzində angioqrafiya bölməsi fəaliyyət göstərir.

Son illər bölmənin maddi-texniki bazası möhkəmlənmiş, yeni tibbi avadanlıq və cihazlar qurulmuşdur. Proseslərin aparılmasında əsas vasitə olan koronarangioqrafiya aparatı monitordan və müayinənin nəticəsini elektron daşıyıcıya yazan qurğudan ibarətdir. Rentgen şüasından qorunmaq üçün tibb işçiləri xüsusi geyimdən istifadə edirlər.

Bölmədə fəaliyyət göstərən həkim və orta tibb işçiləri Bakı şəhərində, Türkiyə Respublikasının tanınmış səhiyyə müəssisələrində təkmilləşdirmə kurslarında olmuş, müasir müayinə metodlarına yiyələnmişlər. Yerli mütəxəssislərin peşə və bacarıqlarının artırılması üçün Mərkəzi Neftçilər Xəstəxanasının angioqraf həkimləri vaxtaşırı olaraq Naxçıvan Diaqnostika-Müalicə Mərkəzinə dəvət olunurlar.Yerli həkimlərin bilik və təcrübəsinin artırılmasına xidmət edən belə tədbirlər ilbəil öz bəhrəsini verir. Belə ki, son illər ərzində yüzlərlə angioqrafiya müayinəsi aparılmışdır ki, onların həyata keçirilməsində yerli həkimlərin xüsusi rolu olmuşdur. 2011-ci ilin avqust ayından isə belə müayinələr sərbəst şəkildə yerli həkimlər tərəfindən həyata keçirilir.

Naxçıvan Diaqnostika-Müalicə Mərkəzinin kardioloq-angioqrafı Nail Mehbalıyev artıq son beş ay ərzində 120-yə yaxın xəstə üzərində koronarangioqrafiya əməliyyatını uğurla icra etmişdir. O, uzun müddət dərman müalicəsi qəbul etmələrinə baxmayaraq, infarktönü mərhələyə çatan 16 xəstəyə heç bir ağırlaşma olmadan balon və stent implantasiyası həyata keçirmiş, istənilən nəticəyə nail olmuşdur. Son günlərdə isə mərkəzdə bir xəstə kəskin miokard infarktı keçirərkən ürəkdayanma müşahidə olunmuş, vaxtında antiaritmik müdaxilə və təcili koronarangioqrafiya, ardınca stent implantasiyası ilə xəstənin miokard infarktı keçirməsinə səbəb olan sağ koronar arteriyanın yüz faizli tutulması tamamilə açılmış, xəstə üçgünlük müşahidədən sonra tam sağalma ilə evə buraxılmışdır. Həmçinin dəfələrlə müxtəlif səbəblərdən ürək vurğularının sayı aşağı düşən, xəstə üçün 90 faiz ölüm halları ilə nəticələnən ürəyin elektrik sistemi blokadalarında ürəkdaxili kardiostimulyator yerləşdirərək xəstələrin həyatı xilas edilmişdir.

Bölmədə anadangəlmə ürək qüsurlarının invaziv üsulla aradan qaldırılması əməliyyatı da uğurla həyata keçirilmişdir. Müayinə zamanı invaziv üsulla, diaqnostik məqsədlə ürək boşluqlarının və damarların görüntülənməsi, ürək boşluqları və damarlarda təzyiqin ölçülməsi, ürəyin atım gücü, qapaq xəstəliklərinin dəyərləndirilməsi, aortakoronar şuntların fəaliyyəti, digər göstəricilərin təyini həyata keçirilir. Bu işlər, bütövlükdə, Naxçıvan səhiyyəsində invaziv kardiologiyanın inkişafında yeni mərhələdir.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***




# İqtisadiyyat







*Muxtar respublikamızın müasir inkişafında tikinti-quruculuq işlərinin mühüm əhəmiyyəti vardır. Sosial və istehsal əhəmiyyətli binaların tikintisi, yeni yolların çəkilməsi sürətləndikcə əhalinin yaşayış səviyyəsi də bu gün dünənkindən keyfiyyətcə yeni məzmun kəsb edir. Quruculuq obyektlərinin müasir standartlara cavab verən yüksəkkeyfiyyətli tikinti materialları ilə təmin olunmasında yerli xammala əsaslanan sement istehsalının mühüm əhəmiyyəti vardır. Bu baxımdan Naxçıvan Sement Zavodu muxtar respublikamızın bu vacib tikinti materialına olan tələbatının ödənilməsində idxaldan asılılığı yüz faiz aradan qaldırmaqla, blokada şəraitində inkişafa necə nail olmağın yolunu bir daha göstərdi.*



## Naxçıvan Sement Zavodunun ixrac imkanları genişləndirilir



Naxçıvan təbii sərvətlərlə zəngindir və onların istehsal və xidmət dövriyyəsinə cəlb olunması günün vacib məsələsidir. Bu məsələ təkcə muxtar respublikamızın blokada şəraitində olması ilə deyil, eyni zamanda ölkəmizin iqtisadi təhlükəsizliyi və valyuta ehtiyatlarımıza qənaət olunması ilə də aktualdır. Başqa sözlə, xammal, enerji və ixtisaslı əmək ehtiyatları olduqda sement kimi çox xərcaparan və nəqliyyat məsrəfləri də yüksək olan məhsulun yerindəcə istehsalı ən uğurlu layihələrdəndir. Naxçıvan Sement Zavodunun qurulmasından keçən müddətdə bu müəssisə öz fəaliyyəti ilə sübut etdi ki, resurslardan səmərəli istifadə olunması məqsədilə həyata keçirilən hər bir iş öz rentabelliyi və sosial səmərəsi ilə rəğbət qazanacaqdır. Muxtar respublikamızda istifadəyə verilmiş yüzlərlə inzibati binanın, sosial-xidmət obyektlərinin, yaşayış binalarının və fərdi mənzillərin inşasında Naxçıvan sementinin də əhəmiyyəti böyükdür.

Naxçıvan Sement Zavodu 2011-ci ildən fəaliyyət göstərir. Gündəlik istehsal gücü 1200 ton olan bu zavodda müasir texnologiya əsasında ən yeni avadanlıqlar quraşdırılmışdır. Keyfiyyətli sement istehsalı üçün zəruri olan xammal isə Kəngərli rayonunun Çalxanqala kəndi ərazisindən gətirilir. Zavodda olarkən bildirildi ki, hazırda bu müəssisə tam gücü ilə işləyir. Tikinti-quruculuq işlərinin tam qızğın çağında Naxçıvan sementinə olan tələbatı ödəmək üçün istehsalın fasiləsizliyini təmin etmək tələb olunur. Bunun üçün burada üçnövbəli iş rejimi tətbiq olunmaqdadır. Məşğulluq göstəricilərinə gəldikdə, Naxçıvan Sement Zavodunda 250-dən çox adam işlə təmin edilmişdir. Bu, bir istehsal müəssisəsinin timsalında çox yaxşı göstəricidir. Qeyd edək ki, bu istehsal müəssisəsində yeni texnoloji avadanlıqlar tətbiq olunduğundan burada çalışan mühəndis texniki işçilərin əksəriyyəti də bu sahə üzrə məzun olmuş ali təhsilli gənclərdir. İşə ciddi münasibət və yüksək məsuliyyətin nəticəsidir ki, indiyə qədər heç bir texniki qəza və travma ilə baş verən istehsalat qəzası olmamışdır. İxtisasartırma üçün daxili kursların keçirilməsi, işçilərin xüsusi geyimlə, səs və toz qoruyucularla təmin olunması, onlara gündə üç dəfə yemək verilməsi işçi əməyinə göstərilən diqqətdən xəbər verir.



Naxçıvan Sement Zavodunda yüksək texniki təhlükəsizliklə yanaşı, ekoloji təmiz istehsal şəraiti də yaradılmışdır. Qeyd edək ki, sement istehsalı müəssisəsi üçün bu, vacib şərtdir. Yüksək temperatur, təzyiq şəraitində həyata keçirilən istehsal prosesinə nəzarət üçün Yaponiyadan alınmış avadanlıqdan istifadə olunur. Almaniyadan alınıb gətirilmiş qaz analizatoru avadanlığı vasitəsilə istehsal prosesində təbii qaza tam avtomatik nəzarət etməklə təhlükəsizlik təmin olunur və enerjiyə qənaət edilir. Atmosferə tullantıların atılmasının qarşısının alınması üçün elektrostatik toztutan və torbalı filtrlər tətbiq olunur. Müəssisənin ətrafındakı yaşıllıq zolaqları və yaradılmış səliqə-sahman isə burada sement istehsalının ətraf mühitə heç bir zərər vurulmadan həyata keçirildiyini göstərir.

Naxçıvan sementi çox yüksəkkeyfiyyətlidir. Bu sement ən yüksək texniki göstərici olan 42,5 indeksli marka ilə istehsal olunur. Bunu ilk olaraq xammalın keyfiyyəti və texnoloji proseslərə dəqiq əməl olunması ilə izah etdilər. Naxçıvan sementindən hazırlanmış betonun yüksək möhkəmlik göstəricisi, aşınmaya qarşı davamlılığı, isti və soyuğa qarşı dözümlüyü vardır. Sərt iqlim şəraiti olan yerdə bu çox vacib göstəricidir.

Naxçıvan Sement Zavodunda istehsal olunan sement eyni zamanda münasib qiyməti ilə də seçilir. 50 kiloqramlıq kisələrdə satılan Naxçıvan sementinin qiymətinin ucuzluğu inşaat işi aparan şirkətlər və fərdi alıcılar üçün çox əhəmiyyətlidir. Zavod sifarişləri vaxtında yerinə yetirə bilmək üçün Naxçıvan şəhəri və ətraf rayonlara daşıma servislərini də həyata keçirir. Artıq Bakı şəhərində və ölkəmizin başqa regionlarında Naxçıvan sementinin alıcıları vardır. Gürcüstan Respublikasına da göndərilən Naxçıvan sementinin gələcəkdə ixracat imkanları genişləndiriləcək. Ötən ili mənfəətlə başa vurmuş müəssisənin artıq bu potensialı da vardır.

Naxçıvanda gedən müasir intibah prosesləri hər sahədə daha sürətli, daha keyfiyyətli iş tələb edir. Bu mənada, yaradılmış istehsal müəssisələri arasında hər bir quruculuq obyektinin, hər bir yaraşıqlı binanın ərsəyə gəlməsində 24 saat dayanmadan işləyən Naxçıvan Sement Zavodunun da payı böyükdür.

**Əli CABBAROV**

## “Naxçıvan Məhsulları” MMC ilk məhsullarını satışa çıxarır

*Muxtar respublikamızda kiçik və orta sahibkarlığın inkişafına dəstək verilməsi, yerli məhsulların qablaşma vəziyyətinin müasirləşdirilməsi, keyfiyyətin yüksəldilməsi, həmin malların xarici bazarlara çıxışı sahəsində ticarət sövdələşmələrinin aparılması, yerli brendlərin yaradılması və digər sahələrdə mövcud fəaliyyətlərin təkmilləşdirilməsi məqsədilə 25 iyun 2014-cü il tarixdə Naxçıvan Muxtar Respublikası İqtisadiyyat və Sənaye Nazirliyinin nəzdində “Naxçıvan Məhsulları” Məhdud Məsuliyyətli Cəmiyyəti təsis olunub.*

Müəssisənin fəaliyyətinin təmin edilməsi məqsədilə Naxçıvan şəhərində 8 min kvadratmetr torpaq sahəsi və Sahibkarlığa Kömək Fondundan 260 min manat güzəştli kredit ayrılıb.

Ötən dövr ərzində cəmiyyət tərəfindən müəyyən araşdırmalar aparılıb və sınaq məqsədilə bir neçə məhsul üzrə pilot layihələrin icrasına başlanılıb. Bu layihələrdə muxtar respublikada fəaliyyət göstərən kiçik istehsalçıların fəal istehsalat prosesinə cəlb edilməsi məqsədilə sifariş əsasında məhsul istehsalına üstünlük verilib. Bu çərçivədə “Kənd pendiri”, “Çaşır və baldırğan turşusu”, “Quru meyvə” istehsalı üzrə tələblərə cavab verən istehsalçılarla müqavilələr bağlanıb, zəruri avans ödəmələr aparılıb. Bu şəkildə məhsulların istehsalının təşviqi kiçik istehsalçı subyektlər tərəfindən istehsal olunan məhsulların iri marketlərə çıxışına imkan yaradacaq və satış probleminin həllinə ciddi töhfə verəcək. Hazırda muxtar respublikada süd emalı müəssisələri fəaliyyət göstərir. Maliyyə və texniki imkanlarının məhdud olması və digər səbəblərdən bu müəssisələr öz məhsullarını ticarət şəbəkələrinə çıxarmaqda çətinliklərlə üzləşirlər. “Naxçıvan Məhsulları” MMC-nin icrasına başladığı “Kənd pendiri” pilot layihəsi muxtar respublikamızda yerləşən süd emalı müəssisələrinin fasiləsiz fəaliyyət göstərməsinə əlverişli şərait yaradacaq. Sifariş əsasında məhsul istehsal edəcək kiçik istehsalçılar daha çox qazanacaqlar. Təbii ki, həmin müəssisələr gündəlik süd tədarükünü nizama salacaq, bu isə heyvandarlığın inkişafına stimul verəcək. Nəticə etibarilə muxtar respublikada istehsal olunan bu məhsul əvvəlki şöhrətinə yenidən qovuşacaq, onlarla məhsul istehsalçısının ixtisaslaşması üçün münbit zəmin yaranacaq, müəssisələr böyük bazarlara çıxış imkanı əldə edəcəklər. Bu layihələrin digər perspektivli məhsullara şamil edilməsi də planlaşdırılır.

Satışa çıxarılacaq məhsulların müasir tələblərə uyğun qablaşdırılması da mühüm əhəmiyyətli sahə kimi diqqət mərkəzində saxlanılır. “Naxçıvan Məhsulları” MMC ilə Türkiyə Respublikasının “Sezeniş Metal”, “Levent Makina” və “Umar Makina” şirkətləri ilə müqavilələr bağlanılıb, metal taralar, bağlama və kodlama avadanlıqları alınıb gətirilib.

Hazır məhsulların market və ticarət şəbəkələrində müasir ticarət qaydalarına uyğun satışının təşkili üçün onlar barkodlarla təmin edilir, tədarük olunan məhsulların saxlanması və keyfiyyətinə nəzarət məqsədilə laboratoriya analizləri aparılır.

Marketinq tədbirləri çərçivəsində “Naxçıvan Məhsulları” MMC tərəfindən xüsusi tərtibatlı soyuducuların alınaraq iri marketlərdə yerləşdirilməsi, reklam işinin təşkili, avtonəqliyyat vasitələrinin alınması və təcrübəli ekspeditorların cəlb edilməsi nəzərdə tutulub.

Mövsümdə muxtar respublikaya xas məhsulların paytaxt Bakı şəhərinə və respublikanın digər regionlarına davamlı və intensiv göndərilməsi istiqamətində işlərin planlaşdırılması aparılıb, bu sahədə ilkin konsepsiya və strategiya müəyyən olunub. Görülmüş işin nəticəsi olaraq, 1 iyun 2015-ci il tarixdən etibarən muxtar respublikanın kənd yerlərində yetişdirilən (şalax növü) təzə ərik və qurudulan tut məhsullarının tədarükü üçün əhali arasında məlumatlandırma tədbirlərinə başlanılıb. Bu sahədə tədbirlər davam etdirilir.

Yerli məhsulların xarici bazarlara ixracı istiqamətində müxtəlif araşdırmalar aparılmaqdadır. Bu sahədə uğurlu nəticə əldə etmək üçün muxtar respublikadan ixrac oluna biləcək perspektivli məhsullar müəyyən edilir, həmin məhsulların iqtisadi göstəriciləri və məhsuldarlığı araşdırılır. Bu məhsulların seçilməsində rəqabətə davamlılıq, ənənəvi və orijinal xüsusiyyətlərin olması, təbiilik və yüksək keyfiyyət kimi meyarlar “Naxçıvan Məhsulları” MMC tərəfindən diqqət mərkəzində saxlanılır. Cəmiyyət yerli məhsulların təşviqi və ixracı sahəsində xarici tərəf-müqabilləri, market şəbəkələri və logistik şirkətlərlə müxtəlif danışıqlar həyata keçirir, mümkün əməkdaşlıq əlaqələri qurur.



“Naxçıvan Məhsulları” MMC-nin bazarlara çıxaracağı məhsulların üzərində istifadə olunması üçün “Aqronax” və “Pronak” adlı əmtəə nişanlarının eskizləri hazırlanıb. Həmin əmtəə nişanları qeydiyyatdan keçirilib və 10 il müddətinə mühafizəyə götürülüb. “Aqronax”ın daha çox kənd təsərrüfatı məhsullarının qablaşdırılmasında, “Pronak”ın isə (Products of Nakhchivan) gələcəkdə xarici ölkələrə təklif ediləcək məhsulların üzərində istifadə edilməsi nəzərdə tutulur.

Cəmiyyətin fəaliyyətini əks etdirmək, əhalinin, həmçinin iş adamlarının və firmaların müraciət və təkliflərini təmin etmək üçün ***www.agronax.az*** və ***www.pronak.az*** internet saytlarının qurulması istiqamətində tədbirlər davam etdirilir.

Qeyd edək ki, “Naxçıvan Məhsulları” MMC-nin “Kənd pendiri” pilot layihəsi çərçivəsində ilkin olaraq 2 kiloqramlıq metal taralarda “Aqronax” əmtəə nişanı ilə istehsal olunan məhsullar Bakı şəhərində və ölkəmizin digər regionlarında alıcılara təqdim olunacaq. Məhsulun qablaşdırılması müasir tələblərə uyğun aparılır, nəfis tərtibatla bəzədilmiş taraların üzərində istehsal tarixi, tərkibi, saxlanma şəraiti və müddəti göstərilir ki, bu da qida məhsulları istehsalında mühüm amildir.

**Kərəm HƏSƏNOV**

# Valideynlər uşaqların asudə vaxtlarının səmərəli keçirilməsinə çalışmalıdırlar

*Uşaqlar ailənin xoşbəxtlik simvolu, gələcəyin yaradıcı və qurucularıdır. Gələcək nəslin ilk tərbiyəçisi olan ana öz övladını hərtərəfli qayğı ilə əhatə etməli, ona böyüyə hörmətlə yanaşmağı, insanları sevməyi, Vətənə sədaqətli olmağı öyrətməlidir.*

Azyaşlı uşaqların asudə vaxtlarının əsasını oyun təşkil edir. Oyun fəaliyyəti ilə uşaq öz gələcəyinin əsasını yaradır. Oyun ilə gələcək mühitini qurur, oyuncaq ilə əşyalarını, oyun yoldaşları ilə isə gələcək münasibətlərini tarazlayır. Uşaqlar oyun oynadıqda valideynlər onların davranışlarına diqqət etməlidirlər. Çünki uşaq oyun fəaliyyətində özünü necə aparırsa, bu, gələcəkdə onun xasiyyəti kimi formalaşa bilər. Onu daha çox oynaya-oynaya öyrənə biləcəyi oyunlara sövq etmək lazımdır. Didaktik oyunlar uşaqların boş vaxtlarını səmərəli keçirmələri üçün mühüm vasitələrdəndir. Yəni uşaq həm əylənsin, həm də öyrənsin.

Bütün dövrlər üçün uşağın asudə vaxtının yaxşı dəyərləndirilməsinin ən ideal vasitəsi oxumaqdır: bu, kitab, qəzet, jurnal və ya elektron məlumat bazası ola bilər. Qiraət zamanı da uşaq nəzarətsiz buraxılmamalıdır. Oxunan məlumatın keyfiyyəti, mövzusu mühümdür. Özündə həyati məlumatları əks etdirən, nə çox fantaziyalarla dolu, nə çox dedektiv xarakterli, nə də çox şiddət xarakterli material oxumaq düzgün deyil. Burada da yenə iş valideynin üzərinə düşür. Belə ki, uşaqlara boş vaxtlarında folklor nümunələri olan nağıllar, dastanlar oxutmaq daha yaxşı olar. Bu həm də onların milli ruhda böyümələrinə müsbət təsir göstərər. Folklor nümunələri milli ruhumuzu, adət-ənənəmizi, milli ornamentlərimizi özündə ehtiva edir. Nağıl oxuyan uşaq öz təxəyyülündə fantaziyanı gerçəyə çevirə bilir. O, nağıllarda olan müsbət xarakterlərə rəğbəti ayırd edərək gələcək həyatında xeyirxah olmağa can atır. Qəhrəmanlıq dastanlarında uşaq müsbət obrazları özünə ideal seçir. Koroğluya, Qaçaq Nəbiyə bənzəməklə igid, qorxmaz, cəsur olmağı öyrənir. Bunlar uşaqları vətənpərvərlik ruhunda tərbiyə etmək baxımından önəmlidir.

Uşaqların asudə vaxtlarını səmərəli keçirmələrinin əlverişli vasitələrindən biri də valideynləri ilə birgə yaşlı qohum-əqrəbalarına baş çəkmək, onların qayğıları ilə maraqlanmaqdır. Ailədə uşaqları elə tərbiyə etmək lazımdır ki, onlar bayram günlərində özləri böyüklərini ziyarət etməyə can atsınlar. Bu insanlarla vaxt keçirmək, lazım olduqda gəzintiyə çıxmaq, birgə kitab oxumaq uşaqların asudə vaxtlarının tərkib hissəsi olmalıdır. Gənc valideynlər düşünməsinlər ki, uşaqlarının yaşlı qohumlarla, nənə-babası ilə birgə vaxt keçirmələri onların ərköyün böyümələri ilə nəticələnir. Bu heç də belə deyil. Uşaqlarımıza milli-mənəvi dəyərlərimizi aşılamaq istəyiriksə, onların nənə-babadan tərbiyə almaları vacibdir. Böyüklər elə təqdim olunmalı, onların fikirləri elə dəyərləndirilməlidir ki, uşaq onda olan gizli aləmi araşdırmağa, onunla söhbət etməyə, onu öyrənməyə can atsın. Bu da valideynin verdiyi tərbiyədən bilavasitə asılıdır.

Asudə vaxtı böyüklərə sərf etmək həm də tərbiyəvi baxımdan faydalıdır. Tərbiyə şəxsiyyətin formalaşmasına yönəlmiş fəaliyyət sahəsidir. Bu prosesdə daha yaşlı nəsil özünün tərbiyəsini kiçik nəslə ötürür. Yəni boş vaxtını böyükləri ilə keçirmək istəyən uşaqlara münasibətdə həmin böyük nəslin nümayəndələri daha diqqətli olmalıdırlar. Unudulmamalıdır ki, böyük nə danışırsa, kiçik də onu götürür və tətbiq edir. Xalq arasında belə bir deyim də var ki, "Uşağa uşaq ikən ədəb öyrətmək daş üzərində naxış vurmaq kimidir".

Uşaqların asudə vaxtlarının səmərəli keçirilməsi yollarından biri də musiqi dinləmək və ona maraq göstərməkdir. İnsanın emosional halından asılı olmayaraq, musiqi dinləmək onun terapiya olunmasına xidmət edir. Belə ki, musiqi insanın daxilində olan mənfi enerjinin azalmasına, müsbət enerjinin artmasına səbəb olur. Asudə vaxtlarında musiqi ilə məşğul olan uşaqlarda dinləmək mədəniyyəti, əgər bir musiqi alətindən istifadə edirsə, onda ritm tutmaq, melodiyanı qavramaq qabiliyyəti inkişaf edir, ixtiyari diqqəti güclənir.

Bütün bu deyilənlər əsasında məlum olur ki, asudə vaxtın musiqiyə həsr olunması da uşağa müsbət təsir göstərir, onun gizli qabiliyyətini üzə çıxarır. İnsanın hər hansı bir və ya bir neçə fəaliyyət sahəsi üçün daha yararlı olduğunu göstərən fərdi, psixi xassəyə qabiliyyət deyilir. Qabiliyyəti üzə çıxarmaq üçün valideyn övladının fəaliyyətini nəzarətdə saxlamalıdır. Onun hansı sahədə daha bacarıqlı olduğunu özü müşahidə etməlidir. Sevimli vaxtını bu qabiliyyətə yönləndirsə, uşaq üçün əvəzolunmaz təcrübə qaynağı əldə edilər. Uşağın musiqiyə olan marağını da elə yönləndirmək lazımdır ki, milli musiqiyə meyilli olsun. Milli musiqi alətlərini öyrənsin, muğamata, xalq musiqisinə can atsın, boş vaxtını sevə-sevə bu fəaliyyətə sərf etsin.

Uşaqların asudə vaxtlarının səmərəli təşkili baxımından bir vasitə də şahmat oyunudur. Bu oyun sayəsində uşaqların həyatında mühüm dəyişikliklər etməyimiz mümkündür. Boş vaxtını şahmat oynayaraq keçirən uşağın tez qərar qəbul etmək qabiliyyəti inkişaf edir. Gəlin belə düşünək: uşaqlara daim valideynlər tərəfindən pisi, yaxşını, nəyi etməsini, nəyi etməməsini didaktik formada anlatmaq istədikdə, bu, onlara çox yorucu və bezdirici gəlir. Amma bir həmlənin oyunun gedişinə necə təsir edə biləcəyini, yaranan yeni vəziyyətin necə nəticələnəcəyini, səbəb-nəticə münasibətini uşaq şahmat oyununda daha yaxşı anlayır və qavrayır. Həmçinin uşağa qələbə əzmini də bu oyun vasitəsilə daha tez aşılaya bilərik. Uşaqların zehni qabiliyyətinin inkişafı baxımından bu oyuna 4-6 yaş arası uşaqları cəlb etmək daha məqsədəuyğundur.

Bundan başqa, uşaqları, əsasən, milli oyunları oynamağa cəlb etmək lazımdır. Milli oyunlar oynamaqla onlar həm adət-ənənələrimizi öyrənir, həm də vaxtlarını səmərəli keçirirlər. Dildən-dilə, eldən-elə zaman aşırımından keçən "çilingağac", "topaldıqaç", "əl üstə kimin əli", "bənövşə, bəndə düşə", "gizlən-qaç", "gözbağlıca" və digər xalq oyunlarına uşaqları cəlb etməklə milli dəyərlərimizi gələcəyə ötürmək kimi bir missiyanı icra etmiş olarıq.

Asudə vaxtın səmərəli keçirilməsi vasitələrindən biri də idmanla məşğul olmaqdır. Boş vaxtlarında idmanla məşğul olan uşaqlarda aktiv həyat tərzi formalaşır, böyümə və inkişaf daha yaxşı olur, xəstəliklərlə mübarizədə immun sistemi daha da güclənir, artıq çəki problemi olmur, sümüklər, bədənin hərəki sinir sistemi inkişaf edir, diqqəti cəmləmək xüsusiyyəti formalaşır. İdmanla məşğul olan uşaqlar daha sağlam, ətrafı ilə münasibətdə daha anlayışlı, təvazökar, dostcanlı və digər keyfiyyətlərə malik olurlar.

Rəsm çəkmək də uşaqların boş vaxtlarını dəyərləndirməkdə səmərəli vasitədir. Rəsmlə məşğul olan uşaqların fantaziyaları, düşünmə qabiliyyətləri daha dolğun xarakter alır. Onlar öz dünyagörüşlərini, təfəkkür formalarını rəsm vasitəsi ilə ortaya qoymağa çalışırlar. Rəsm çəkmək uşaqların bədii zövqünü, təxəyyülünü, yaradıcılıq qabiliyyətini inkişaf etdirir. Bu məşğuliyyət zamanla istedada çevrilə bilər.

Valideynlər uşaqları müəyyən işlərə cəlb etməklə də onların asudə vaxtlarını faydalı keçirmələrinə nail ola bilərlər. Qız uşaqlarına süfrəni hazırlamaq, ev yığışdırmaq kimi sadə işləri tapşırmaq olar. Marağı olan qız uşaqlarını toxuculuq işinə də sövq etmək mümkündür. Oğlan uşaqlarını atalarına kömək etməyə istiqamətləndirmək lazımdır. Bu, onların zəhmətkeş, əməksevər kimi böyüməsinə yardımçı olar. Əməksevərlik tərbiyə növlərinin başlıca prinsipidir. Məhz bu vərdişlərin də təməli insanın uşaq yaşlarında asudə vaxtlarının düzgün qurulması prinsipi ilə ailədə qoyulur. Uşaqların bütün bu qabiliyyətlərini inkişaf etdirə bilsək, gələcəyin tanınmış simalarını yetişdirmiş olarıq.

Qeyd edək ki, uşaqların asudə vaxtlarının səmərəli təşkili üçün muxtar respublikada məktəbdənkənar müəssisələr vardır. Bunlardan Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzini, M.T.Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrını, Naxçıvan Muxtar Respublikası Estetik Tərbiyə Mərkəzini, Naxçıvan Dövlət Uşaq Teatrını misal göstərə bilərik. Valideynlər uşaqlarını bu məktəbdənkənar müəssisələrin hazırladıqları mədəni tədbirlərə, dərnəklərə yönəltməklə onların asudə vaxtlarının səmərəli keçməsinə köməklik göstərmiş olarlar.

Ümumilikdə, uşaqların asudə vaxtlarının səmərəli təşkili valideyn nəzarəti altında olmalıdır. Həmçinin uşaqları istəmədikləri fəaliyyətə məcbur etmək, yaxud sevdiyi fəaliyyətdən uzaq tutmaq düzgün deyil. Çalışmaq lazımdır ki, onlar sevdikləri fəaliyyətlə məşğul olsunlar. Bəlkə də onların sevdiyi işi görmələrinə mane olaraq gələcəyin rəssamının, musiqiçisinin, memarının qol-qanadını qırmış oluruq.

*Unutmaq olmaz ki, uşaqların asudə vaxtlarının səmərəli təşkili valideynlərin bir tərəfdən mənəvi borcudursa, digər tərəfdən ölkəmizin qanunları ilə onların üzərinə qoyulmuş bir vəzifədir ki, buna sosial məsuliyyət deyirlər. Valideynlər bu vəzifələri yerinə yetirmədikdə və ya düzgün yerinə yetirmədikdə həm qanun, həm də cəmiyyət qarşısında məsuliyyət daşıyırlar.*

**Sahir RÜSTƏMOV**
***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin şöbə müdiri***

*Düzgün tərbiyə almış vətənpərvər gəncliyin yetişdirilməsi və sağlam milli şüurun formalaşması xalqın xoşbəxt gələcəyinin təminatı deməkdir. İnsanın istər maddi, istərsə də mənəvi baxımdan ideal formalaşması üçün, ilk növbədə, ona fiziki sağlamlıq lazımdır. Deməli, sağlam gələcəyin əsası idmandan başlayır. Məşqçi amili idmanda mühüm rol oynayır. Naxçıvan Muxtar Respublikasında idmana, idmançılara, həmçinin məşqçilərə göstərilən qayğı yüksək səviyyədədir.*

*Veteran idmançılar*

# Milli idman növünün təbliğatçısı



Milli idman növlərindən olan güləşin muxtar respublikada qədim ənənəsi var. Belə ki, dünənimizdən bizə miras qalan bu idman növü xüsusi qayğı ilə və bu günümüzə kimi yaşadılıb, öz potensialını itirməyib. Təbii ki, güləşin zəmanəmizə kimi gəlməsində əsas rolu onu təbliğ edən məşqçilər oynayıb. Bu məşqçilərdən biri də ömrünü güləşə həsr edən Kamaləddin İsmayılovdur.

Kamaləddin müəllimlə söhbətimizə güləşin onun həyatında hansı dəyişikliklərə səbəb olduğu barədə başladıq: "Güləş mənim üçün bir idman növü olmaqla yanaşı, həm də böyük mirasdır, milli dəyərdir. Azərbaycanda bu növün qədim tarixi var. Biz gənc olarkən güləşin sirlərini öyrənməklə kifayətlənmirdik, eyni zamanda bu növün tarixi barədə məlumatlar əldə edirdik. 12 yaşımdan etibarən bu sahəni seçmişəm və heç vaxt da peşman olmamışam. Peşəkar karyeram ərzində dəfələrlə yeniyetmə, gənc və kişilər arasında Naxçıvan çempionu olmuşam. Həmçinin yeniyetmələr arasında "Azərbaycan çempionu" adını qazanmışam. Hərbi xidmətdə olduğum müddətdə yenə də bu idmanla məşğul olmuşam və Ukraynada hərbçilər arasında keçirilən birinciliyin qalibi olmuşam".

Peşəkar idmançı kimi karyerası zəngin olan Kamaləddin İsmayılov artıq 34 ildir ki, məşqçi kimi fəaliyyət göstərir: "Karyeramı başa vurduqdan sonra məşqçi kimi milli idman növünün sirlərini həvəsi olanlara öyrətməyə başladım. 80-ci illərin əvvəllərindən etibarən məşqçilik etməyə başlamışam. O gündən etibarən yalnız bir məqsədim olub: muxtar respublikada güləşin inkişafına, kütləviləşməsinə töhfələr vermək. Qismən də olsa, buna nail oldum, yetirmələrim dəfələrlə ölkə çempionu adını qazandı və beynəlxalq arenalarda Azərbaycanın bayrağını dalğalandırmağa müvəffəq oldular".

Azərbaycanda qadın güləşi dedikdə ilk ağlına gələn insan Kamaləddin müəllimdir. Çünki ölkədə qadın güləşinin yaradılması məhz veteran idmançının adı ilə bağlıdır: "1998-ci ildən başlayaraq qadın güləşinin inkişafı üçün ölkə ərazisində təbliğata başladıq və ilk dəfə olaraq Naxçıvanda qadın güləşinin əsasını qoyduq. Artıq 2000-ci ildə bu, öz bəhrəsini verməyə başladı və 20-dən çox qadın güləşçi ilə məşqlərimizi davam etdirirdik. Bir neçə il sonra isə Azərbaycanda qadın güləşi ilə məşğul olanların sayı artmağa başladı və ölkə ərazisində geniş vüsət aldı".

Muxtar respublikada güləşin inkişafı üçün səy göstərən Kamaləddin İsmayılov digər idman növlərinin də kütləviləşməsi üçün müəyyən addımlar atıb: "2000-ci illərin əvvəllərində Naxçıvanda ilk dəfə bədii gimnastikanı kütləvi idman növü kimi təbliğ etməyə başladıq. O vaxt uşaqların bu idman növünə marağı həddindən artıq çox idi. Bir çox idmançımız müəyyən uğurlardan sonra milliyə dəvət aldı ki, onlardan biri də Humay Qafarovadır. Çox sevindirici haldır ki, Humay Qafarova hazırda bu sahənin inkişafı üçün Naxçıvanda çalışır".

"Güləşçi olmaq istəyən kəs, ilk növbədə, bütün diqqətini bu sahəyə yönəltməlidir", – təcrübəli veteran idmançımız belə deyir. O, gənclərin güləşi sevmələri üçün öz tövsiyələrini də verməyi unutmadı: "Güləş idman növü olmaqla yanaşı, həm də mətinlik, ədalətlilik aşılayan fiziki hərəkətlər məcmusudur. Güləşçi olmaq, bu sahəni sevmək iradə, cəsarət tələb edir. Sevindirici haldır ki, bu gün muxtar respublikada bu növə maraq həddindən artıq çoxdur".

"Naxçıvan Muxtar Respublikasının Əməkdar bədən tərbiyəsi və idman xadimi" fəxri adı ilə təltif olunan Kamaləddin İsmayılov bu adı daim doğrultmağa çalışacağını da qeyd etdi. Veteran güləşçi milli idman növünə göstərilən diqqət və qayğıya görə dövlətimizə minnətdarlığını bildirdi: "Muxtar respublika rəhbəri idmana xüsusi diqqət yetirir. Məhz bunun nəticəsidir ki, Naxçıvan idmançıları yollandıqları hər bir yarışın favoriti hesab olunurlar. Buna görə muxtar respublika rəhbərinə minnətdarlığımızı bildiririk. Həmçinin qeyd edək ki, bu diqqət və qayğıdan lazımınca yararlanmağa çalışan muxtar respublika Güləş Federasiyasının, onların, eləcə də Gənclər və İdman Nazirliyinin güləşçilər üçün yaratdığı şərait də biz məşqçilərin ürəyincədir".

**Ceyhun MƏMMƏDOV**

## Yay tətili günlərində məktəblilərə Azərbaycan filmləri nümayiş etdiriləcək

Məktəblilərin yay tətili günlərinin səmərəli təşkili məqsədilə muxtar respublikada mövcud imkanlardan geniş istifadə edilir, müxtəlif tədbirlər həyata keçirilir. Belə tədbirlər məktəblilərin bilik və bacarıqlarının artırılmasına, onların vətənpərvərlik hisslərinin gücləndirilməsinə, istedad və bacarıqlarının üzə çıxarılmasına istiqamətləndirilir.

Naxçıvan Dövlət Film Fondu da məktəblilərin yay tətili günlərində onların asudə vaxtının səmərəli keçməsi üçün maraqlı filmlərin nümayişini təşkil edir.

Fonddan aldığımız məlumata görə, iyun ayının 17-dən başlayaraq məktəblilər yenə də bu imkandan yararlana biləcəklər. Belə ki, həftənin çərşənbə, cümə axşamı və cümə günləri saat $11^{00}$-də filmlərin nümayişinə başlanılacaq. "Xoca", "Fəryad", "Ağ atlı oğlan", "Sehrli xalat", "Qaraca qız", "Mən mahnı bəstələyirəm", "Bir qalanın sirri" və başqa filmlər məktəblilərə təqdim olunacaq.

**Xəbərlər şöbəsi**

***İtmişdir***

Naxçıvan şəhəri, "Əlincə" məhəlləsi 22, mənzil 30-da yaşayan Hüseynova Rübabə Heydər qızının adına olan evin texniki pasportu itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Kərəm Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 461